AZƏRBAYCAN RESPUBLİKASI

MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI
ELMİ-METODİKA ŞÖBƏSİ

# Milli-mənəvi dəyərlərimizi qoruyaq və nəsillərə çatdıraq.

B A K I – 2014

**Redaktor:** **Şəhla Qəmbərova-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtibçi:** **Könül Səmədzadə-F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi metodika şöbəsinin baş kitabxanaçısı**

# G İ R İ Ş

Biz öz milli mənəvi dəyərlərimizlə, dini dəyərlərimizlə, adət ənənələrimizlə fəxr edirik.

Heydər Əliyev

Ulu öndər

Keçmişini, irsini, tarixini, mədəniyyətini qəlbinə hopdurmuş olan əyilməz, sınmaz, dağılmaz bir gəminin yolçularıyıq. Bu gəmi çox möhkəmdir. Dəmirağac möhkəmliyi, Laçın qayasının sərtliyi, nəsildən-nəslə ötürülən güc, müdrik, qocaların nəsihətləri, Ağrı dağının ağırlığı var bu gəmidə.

Nənələrin əl işi, babaların qoyduğu iz, özündəkilərini anlamaq, sahib çıxmaq, əlindən alınmışları qaytarmaq, keçmişinin ruhaniyyətinin xeyir-duası ilə yola çıxır bu gəmi.

Uzaq məmləkətdə min ilməli, min naxışlı bar xalı var. Babalarımızın təri hopmuş bir saxsı qab var. Piltəsi itmiş bir çıraq, qulpu sınmış bir cəhrə, yağı alınmış bir nehrə, yazılmış bir kitab var. Biz sizinik deyir bu canlı tarixlər.

Onları özümüzünküləşdirmək üçün yola çıxır bu gəmi.

Azərbaycan məmləkətinin tozunu, torpağını müqəddəs bilən bir nəsildir bu gəminin yolçuları. Azərbaycanı dünyaya sevdirmək və bu məmləkətə xidmət etmək üçün yola çıxır bu gəmi.

Uzunəsrlik tariximizin varisi olaraq insanlığın səadəti üçün, fitnə-fəsad törədənlərə qarşı islahedici bir düşüncənin sahibidir bu gəminin yolçuları. Bu düşüncəyə sahib olan insan "vətən" deyib oturar, "vətən" deyib qalxar...

**Mənbə:Füyuzat jurnalı**. – 2012. - № 1 (63). – S. 57



***Ulu öndər Heydər ƏLİYEV: Biz öz milli dəyərlərimizlə fəxr etməliyik. Bizim milli dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz... Biz heç vaxt öz milli dəyərlərimizi unutmamalıyıq. Onu yaşatmaq, ondan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir.***

Qədim dövlətçilik tarixinə malik olan Azərbaycan xalqı hər zaman milli dəyərlərinə sadiq qalaraq bu dəyərləri əsrlərlə yaşatmış və inkişaf etdirmişdir. Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

Milli dəyərlərimizə, adət-ənənələrimizə biganə münasibət gələcəyimiz üçün yaxşı heç nə vəd etmir. Tarixdən məlumdur ki, öz soykökünə, tarixinə, milli dəyərlərinə, inanclarına dönük çıxan millətlər və dövlətlər müəyyən zaman kəsiyində "əriyib" yox olmuş və tarix səhnəsindən birdəfəlik silinmişlər. Hər hansı bir xalqı, dövləti məhv etmək üçün onu milli dəyərlərindən ayırmaq kifayətdir.

Bəs milli dəyərlər deyəndə nə başa düşülməlidir? Milli ideologiya, milli tarix, milli dil, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə, dahi şəxsiyyətlərimiz, milli musiqimiz, muğamlarımız, folklorumuz: hansı ki bura bizim yaddaşımız – fərd yaddaşı, etnos yaddaşı, millət, xalq yaddaşı daxildir. Bir sözlə, milli olan bütün nailiyyət və keyfiyyətlərimiz milli dəyərlər sisteminə aiddir.

Milli dəyərlərimizin qorunması və inkişafı ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Milli dəyərlərimizə, soykökümüzə qayıdışın, milli hisslərimizin oyanışının xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu sahəni diqqət mərkəzində saxlayan ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə xalqımızın milli oyanışının əsası qoyulmuşdur.

Ümummilli lider Heydər Əliyev milli dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu

kimi dəyərləndirirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan ulu öndər deyirdi: “Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir”.

Milli dəyərlərimizə dərindən bələd olan ümummilli lider xarici ölkələrə səfərləri zamanı soydaşlarımızla görüşlərində onlara harada yaşamalarından asılı olmayaraq Azərbaycançılıq ideologiyasına sadiqliyi, xalqımıza xas olan adət-ənənələrimizi yaşatmağı, təbliğ etməyi tövsiyə edirdi: “Bizim hamımızın bir Vətəni var – bu, Azərbaycandır. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır”.

Məlumdur ki, dinimiz bizim milli-mənəvi dəyərlərimizin ən önəmli ünsürlərindən biridir. Xalqımız 70 il kommunist rejimdə ateist təbliğatın aparıldığı bir şəraitdə yaşasa da öz dini dəyərlərini unutmamış, onları gizli də olsa yaşatmışdır. Lakin bununla belə o dövrdə dini dəyərlərimizin zədə aldığı da bir reallıqdır. Təsadüfi deyildir ki, Sovetdən əvvəl Azərbaycanda neçə min məscid, mədrəsə, təkkə olduğu halda müstəqilliyimizi yenidən əldə edəndə cəmi 17 məscidimiz vardı. Bu, Sovet rejiminin dinlə mübarizəsinin nə qədər amansız olduğunu göstərir. Dini ibadətgahlarımızın və abidələrimizin bərpası və yenidən inşası da Ulu Öndərin müstəqil Azərbaycanın prezidenti olduğu dövrə təsadüf edir. Məhz bu dövrdə yüzlərcə ibadətgah inşa və yaxud da bərpa edilmiş, dini dəyərlərimiz yenidən canlanmışdır. Xalqımızın əsrlərcə ziyarət yeri olan, lakin Sovet rejimi tərəfindən dağıdılan Bibi Heybət məscidi və ziyarətgahının Heydər Əliyevin əmri ilə dövlət hesabına yenidən inşa edilməsi onun bu sahədəki xidmətlərinin bir göstəricisidir. Belə misalların sayı olduqca çoxdur. Heydər Əliyev İslamı bizim milli-mənəvi kimliyimizin ayrılmaz bir hissəsi kimi qəbul edirdi. “Dinimiz xalqımızın milli-mənəvi sərvətidir” sözləri onun dinə baxışını çox gözəl bir şəkildə xülasə edir. Ulu Öndər dinimizin ilahi əxlaqi dəyərlər sistemi olaraq mənimsənilməsinin xüsusilə gənclərin formalaşmasında müsbət bir funksiya icra edəcəyini düşünürdü.

## Bölmə I:

## Milli dəyərlərimizi qoruyaq və yaşadaq.

Milli-mənəvi dəyərlərimizin kökü əməli-salehlik və əxlaqi saflıqdır; mənəvi təmizlik və büllurluqdur; halallıq və gözütoxluqdur; xeyirxahlıq və mərdanəlikdir...Bunların hamısının zirvəsində isə adi vicdan dayanır.

Vətənə, dövlətə və onun mövcudluq rəmzi, ali atributu olan bayrağa səmimi sevgi nümunəsini xatırlayanda düşünürük: ta qədim dövrlərdən saf çeşmə tək süzülüb gələn, milli kimlik meyarına çevrilən ali mənəvi keyfiyyətləri, bəşər sivilizasiyasını zənginləşdirən dəyərli mədəni irsi, özünəməxsusluğu şərtləndirən bu xalqın təmsilçisi olmağa həqiqətən də dəyər. Nədən ki, mövcudluq tarixi şərəfli mübarizə yolu ilə zəngin olan müdrik xalqımızın tarixində ona utanc gətirəcək hansısa hadisə olmayıb. Taleyin sərt üzündən əsrlər boyu müxtəlif sarsıntılara, ərazi təcavüzünə, mənəvi terrora, repressiyalara məruz qalan Azərbaycan xalqı ən çətin məqamlarda belə, milli kimliyini, şərəf və heysiyyətini qoruyub. Qloballaşan dünyanın yeni nizamı həqiqi mahiyyətindən çox-çox uzaqlaşmış "qərbləşmə", "avropalaşma" kimi kütləvi kulturoloyi baxışları, kosmopolit dəyərləri zorən kiçik millətlərə sırımağa çalışsa da, Azərbaycan xalqı bu qarşısıalınmaz prosesə oturuşmuş mənəvi-əxlaqi dəyərlər sistemi ilə layiqli müqavimət gücündə olduğunu təsdiqləyib.

Bütün bunlara rəğmən, nədənsə biz bir həqiqəti etiraf etməyə özümüzdə hələ ki, mənəvi güc tapmırıq. Etiraf etməliyik ki, yaşadığımız təbəddüatlarla dolu cəmiyyətin sosial çətinlikləri qarşısında bəzən özümüzdən milli- kimlik kartımıza çevrilmiş munis dəyərlərimizdən uzaqlaşır, hardan gəlib, haraya getdiyimizi unuduruq. Müstəqilliyi, azadlığı al qanla yoğrulan bu xalqın tarixən Cananşir, Babək, Şah İsmayıl, Cavad xan misalındakı şanlı qəhrəmanlıq salnaməsinə, Kitabi Dədə qorqud" eposunda parlaq təcəssümünü tapan zəngin mənəvi irsinə, yetkin mənəviyyat örnəyinə çevrilən adət-ənənələrinə belə skeptik ruhda yanaşanlar tapılır. Gəlin unutmayaq ki, mənəvi deqredasiya təzahürlərini tarixən hər bir cəmiyyət öz taleyində çətin sınaq mərhələsi kimi yaşayıb. Bunu əldə dəstəvuz edib çətin və şərəfli yol keçən azərbaycanlılarda "natamamlıq kompleksi" axtarmağa mənəvi haqqımız çatırmı?

Xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı, bacaran, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi və vahid sosium üçün uğurlu təməldir. Bu mənada, azərbaycançılıq millətindən asılı olmayaraq özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm istinad mənbəyi, ideoloyi bünövrədir. Bu ideologiyanın pozitiv xarakteri həm də bütün dünyaya

səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur.

Azərbaycançılıq dilindən, millətindən, irqindən, sosial mənsubiyyətindən asılı olmayaraq bütün ölkə vətəndaşlarını ümumi vətən naminə həmrəyliyə dəvət edir. Milli-dini mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın bu torpaq üçün milli yiyəlik hissini yaşaması isə torelantlığın bariz təzahürüdür. Əslində, dini və etnik tolerantlıq Azərbaycan xalqının qanında, canında, kökündə var. Milli ənənələrimizdə, mentalitetimizdə, habelə sosial, mənəvi və dini düşüncə layla-larımızı özündə yaşadan folklorumuzda başqa dinlərə, millətlərə dözümlü münasibət özünü yaşadır.

Mədəni irsin mənimsənilməsi prosesi müəyyən xüsusiyyətlərə malikdir. Mədəni irsin rol və əhəmiyyətinin dəyərləndirilməsinin müasir tendensiyası onları təkcə olduqları formada, ilkin vəziyyətlərində saxlamaq, qorumaq deyil, həmçinin müasir həyatda onlardan istifadə etməyi bacarmaq təşkil edir. Mədəni irs müasir mədəni hadisələrin funksiyalarını özündə cəmləşdirir. Bütün bunlarla yanaşı mədəni irs, bədii dəyərlər köhnəlmə və deformasiyaya məruz qalır. Bu məruzqalma prosesinin ən əlverişli məqamlarından biri mədəni irsin qorunması və müdafiəsinin təminidir. Bütün cəmiyyətlərdə bu prosesə diqqətlə yanaşılır. Bütün başqa ölkələrdə olduğu kimi Azərbaycanda da mədəni irsin qorunması beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqə, əməkdaşlıq nəticəsində həyata keçirilir. Belə ki, 1972-ci ilə Yuneskonun tərkibindəki ümumdünya mədəni və təbii irsinin qorunması haqqında Konvensiya (1972-ci il) və Tarixi ansambılların qorunması üzrə tövsiyələr (1976) hazırlandı. Konvensiyanın əsas nəticəsi beynəlxalq mədəni əməkdaşlıq sisteminin yaradılması oldu.

Komitənin ümumdünya mədəni irsinin siyahısına Azərbaycan memarlığının bir neçə abidə ansamblı və abidəsi daxil edilmişdir. Bunlar aşağıdakılardır: Naxçıvanda Əcəmi yaradıcılığının şah əsəri Mömünə xatun və Yusif ibn Küseyr türbələri, Bakıda Qız qalası, Şirvanşahlar sarayı ansamblı, Şəki Xan sarayı. Bu abidələrin dünya mədəni irsinin siyahısına daxil olması həmin abidələrin sivilizasiyaların təsiri ilə əlaqələndirilərək onların beynəlxalq səviyyədə müdafiəsini təmin edir.

Tarixi və mədəni sərvətlərin qorunması və müdafiəsi bir çox digər beynəlxalq aktların hazırlanmasını da həyata keçirir. Bu mənada YUNESKO-nun sıx əməkdaşlıq apardığı təşkilatlardan biri də tarixi yer və tarixi abidələrin qorunması üzrə Beynəlxalq şurası – İKOMOS-dur. Bu təşkilat 1965-ci ildə 88 ölkənin mütəxəssislərinin səyi ilə yaradılaraq əsas məqsədi tarixi mədəni abidələrin bərpası və konservasiyasıdır. İKOMOS-un təşəbbüsü ilə dünyada mühafizə işi ilə bağlı bir sıra təkmilləşdirici əhəmiyyət kəsb edən sənədlər qəbul edilmişdir. Bunların arasında tarixi park və bağların qorunması üzrə Florenti Beynəlxalq Xartiya

(1981), Tarixi yerlərin müdafiəsi üzrə Beynəlxalq Xartiya (1987), Arxeoloji irsin istifadəsi və qorunması üzrə Beynəlxalq Xartiya (1990) hazırlanmışdır. Ümumdünya tarixi – mədəni irs məsələləri ilə məşğul olan və xüsusilə bərpa, konservasiya sahəsində Benəlxalq tədqiqatlar aparan təşkilatlardan biri də Roma mərkəzidir (İKOMOS). Bu təşkilatın 80 ölkədən çox nümayəndəsi mövcuddur. Bu mərkəz abidələrin qorunması, bərpası üzrəmütəxəssislərin hazırlanması, tövsiyələrin tərtibinə nəzarət edir, elmi tədqiqatçıların fəaliyyətini əlaqələndirir. Milli-mənəvi dəyərlərin qorunubsaxlanılması dövlətimizin ən mühüm vəzifələrindən biridir. Mədəni sərvətlərin qorunub saxlanılması və istifadəsi problemləri ölkənin Əsas Qanununda – Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmısdır. “Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanasmalı, ona qayğı göstərməli tarix və mədəniyyət abidələrini qorumalıdır”.

“Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu”nda “Mədəniyyət sərvətləri” haqqında deyilir: “Mənəvi və estetik ideallar, normalar və davranıs qaydaları, dillər, dialektlər, ləhcələr, milli və etnik ənənələr və adətlər tarixi toponimlər, folklor, tətbiqi xalq sənətləri, mədəniyyət və incəsənət əsərləri, mədəniyyət fəaliyyətinin elmi tədqiqatının nəticələri və metodları, tarixi və mədəni əhəmiyyəti olan binalar, tikililər, əşyalar, tarix və mədəniyyət baxımından unikal ərazilər və obyektlər mədəniyyət sərvətləridir”.

Biz azərbaycanlılar öz tarixi-mədəni irsimizlə çox fəxr edirik və heç şübhəsiz, bizim buna haqqımız vardır. Bu irs bütün ölkə üzrə Qobustandakı mezolit dövrünün qayaüstü rəsmlərindən, atəşpərəstlərin Bakı yaxınlığındakı “Atəşgah” məbədindən, Şirvanşahlar Sarayı və bütövlükdə İçəri Şəhərdən (orta əsrlər Bakısı), Kiş kəndindəki alban kilsəsindən, Şəki qalası və Xan sarayından, birinci neft yüksəlişi zamanı Bakıda tikilən gözəl binalardan tutmuş tarixi irsin digər çoxsaylı gözəl və diqqətəlayiq şəhər nümunələrinə, qala və məscidlərə, kilsə, məbəd və milli tikililərə qədər polietnik və çox mədəniyyətli keçmişin bütün daşıyıcılarını əhatə edir.

Mənəviyyat insanın daxili dünyasıdır. Orada gözəllik də var, çirkinlik də, mərdlik də var, namərdlik də, şərafət də var, qəbahət də...ikincilərin qarşısını vaxt ikən müdrik ağıl, sarsılmaz iradə və milli mentalitet adı özünüdərk çəpərləri ilə elə sədləməliyik ki, onlar gözəgörünməz yollarla qanımıza hopub birinciləri erroziyaya uğratmasınlar.

## Bölmə II:

## Müasirlik və dini-mənəvi dəyərlər

**Milli adət-ənənələrin öyrənilməsi və onların mənəvi dəyərlər sisteminə çevrilməsi həmişə aktual olub. Çünki tarixin bütün dövrlərində millətin və xalqın ictimai şüur səviyyəsini əks etdirən adət və ənənələr məkanında klassikləşib və mədəni irsə çevrilib. Yeni yaranan mənəvi dəyərlər də varislik prinsiplərinə uyğun olaraq əski adət və ənənələrdən bəhrələnib. Lakin bu, mənəvi dəyərlərin inkişafina, yeniləşməsinə mane olmayıb. Sadəcə olaraq adət və ənənə formasında mənəvi mədəniyyətin tarixi təcrübəsinə yeni istiqamətləri yaranıb.**

Sitatlar:

1. Azərbaycan xalqı böyük, qədim tarixə malikdir. Çoxəsrlik tariximizdə xalqımız bir çox sınaqlardan çıxmış, yaşamış, öz mənliyini itirməmiş, öz milliliyini itirməmiş, dünya sivilizasiyasını zənginləşdirmişdir. Ancaq tarixin müxtəlif mərhələlərində azərbaycanlılar bəzi mərhumiyyətlərə düçar olmuşlar. Ona görə də bütün dünyaya səpələnmiş azərbaycanlıların birliyi, həmrəyliyi indi həm bizim üçün, müstəqil Azərbaycan dövləti üçün, həm də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün xüsusi əhəmiyyət kəsb edir.

Heydər Əliyev

Ulu öndər

1. "Biz Azərbaycanda demokratiyanın bütün tələblərini tətbiq etmişik və edəcəyik. Azərbaycanın milli-mənəvi dəyərlərinə qarşı, Azərbaycanın milli mentalitetinə qarşı yönəldilmiş hərəkətlərin hamısının qarşısı alınacaq və qanun çərçivəsində lazımi ölçülər götürüləcəkdir. Heydər Əliyev

Ulu öndər

2. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz.

Heydər Əliyev
Ulu öndər

3. Biz öz milli mənəvi dəyərlərimizlə, dini dəyərlərimizlə, adət ənənələrimizlə fəxr edirik.

Heydər Əliyev
Ulu öndər

4. Mənim üçün hər şeydən əziz mənim xalqımdır. Mənim Vətənimdir, mənim torpağımdır.

Heydər Əliyev
Ulu öndər

5. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir.

Heydər Əliyev
Ulu öndər

6. Yüksək mədəniyyətə malik olan xalq, irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir...

Heydər Əliyev
Ulu öndər

7. Həyatda uğurla yaşamaq üçün xalqımızın, millətimizin milli-mənəvi dəyərlərinə sadiq olmaq lazımdır, bu milli-mənəvi dəyərləri ümumbəşəri dəyərlərlə birləşdirib müasir həyat tərzi keçirmək lazımdır.

Heydər Əliyev
Ulu öndər

8. “Biz öz milli-mənəvi dəyərlərimizə sadiqik, bu dəyərləri qoruyuruq, saxlayırıq, ənənələri yaşadırıq və bizim gücümüz də bundadır.”

İlham Əliyev

Azərbaycan Respublikasinin Prezidenti

9. Bizim üstünlüyümüz ondan ibarətdir ki, gənc və güclü dövlətimiz möhkəm təməl üzərində qurulub. Çoxəsirlik tarix, mədəniyyət üzərində qurulub. Milli-mənəvi dəyərlər bizim üçün ən vacib məsələdir. Biz təbii ki, ümumbəşəri dəyərləri bölüşürük. Ancaq bizim üçün başlıca dəyərlər öz milli Azərbaycan dəyərlərimizdir.

İlham Əliyev

Azərbaycan Respublikasinin Prezidenti

## Bölmə III:

## Gənc nəslin yetişməsində milli dəyərlərimizin rolu.

Mənəviyyat insanın daxili dünyasıdır. Orada gözəllik də var, çirkinlik də, mərdlik də var, namərdlik də, şərafət də var, qəbahət də...

Milli-mənəvi dəyərlərimizin kökü əməli-salehlik və əxlaqi saflıqdır; mənəvi təmizlik və büllurluqdur; halallıq və gözütoxluqdur; xeyirxahlıq və mərdanəlikdir...Bunların hamısının zirvəsində isə adil vicdan dayanır. Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir.

Milli-mənəvi dəyərlərimiz xalqımızın simasında zaman-zaman yaşamışdır. Bizi başqa xalqlardan, millətlərdən fərqləndirən də elə bir çox məqamda milli-mənəvi dəyərlərimiz, mədəniyyətimiz, mənəviyyatımızdır. Bu mənada Azərbaycan ailəsi də başqa ailələrdən fərqlənir. Ailələrimizdə böyüyə hörmət, ata-anaya sevgi, ehtiramla davranmaq, kiçiklərə qayğı, diqqət əsas göstəricilərdəndir. Bizim gələcək nəsillərə örnək olan əxlaq, tərbiyə simvolu, məhəbbət etalonu kimi daim hörmətlə anılan nümunəvi ailələrimiz çoxdur. Bu ailələr Azərbaycan xalqına sözün həqiqi mənasında böyük şəxsiyyətlər, dahilər bəxş etmişdir.

Azərbaycan müasirləşən, Avropa və dünya birliyinə sürətlə inteqrasiya edən ölkədir. Təbii ki, müasir dünyada sürətlə davam edən qloballaşma prosesləri bizim də ölkədən yan keçməyib. Buna baxmayaraq, qloballaşma adı altında öz milli dəyərlərimizi unutmamalı və bu dəyərlərə sadiq olmalıyıq. Hər bir ölkə və xalq üçün onun milli dəyərləri hər şeydən üstün tutulmalı və digər xalqların dəyərləri ilə ziddiyət təşkil etməməlidir. Bu baxımdan biz qloballaşma deyəndə Azərbaycanda beynəlxalq əməkdaşlığı, xoş münasibətləri, səmimi dostluğu nəzərdə tuturuq. Biz hər zaman qloballaşma adı altında digər xalqların adət-ənənələrinə zidd olan, milli mentalitetə xas olmayan dəyərlərə qarşı mübarizə aparmalıyıq. Təbii ki, bu mübarizədə milli mənliyimizi qorumaq ən vacib şərtlərdəndir.

Milli-mənəvi dəyərlərimizin yaşadılmasında, onun təbliğində genişmiqyaslı fəaliyyəti ilə ictimaiyyətimizin rəğbətini qazanan Heydər Əliyev Fondu da bu sahədə böyük uğurlara imza atır. Fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva tarixi-dini, mədəni abidələrin qorunmasını və bərpasını daim diqqət mərkəzində saxlayır. Biz bu yaxınlarda bir daha bunun şahidi olduq. Müsəlman aləminin ən müqəddəs ibadətgahlarından olan Şamaxı Cümə məscidi milli mənəvi dəyərlərimizin təbliğində böyük əmək sərf edən Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun xidmətləri sayəsində əsaslı bərpa və yenidənqurmadan sonra xalqın istifadəsinə verilmişdir. Onu da qeyd edək ki, tolerantlıq ənənələrinin təblıığində, irsimizin tanıdılmasında, həmçinin dünyanın müxtəlif guşələrində əyani şəkildə nümayişində Heydər Əliyev Fondunun məxsusi xidmətləri vardır. Fondun maliyyə dəstəyi ilə Bakıdakı Pravoslav və Müqəddəs Məryəm kilsələrində də təmir-bərpa işləri aparılmış, yəhudi uşaqları üçün təhsil və mədəniyyət mərkəzinin tikintisinə dəstək verilmişdir. Strasburq Kafedral kilsəsinin şüşələrinin təmirinə ayırdığı maliyyə yardımı səxavətli bir jest və Azərbaycanın Avropaya, onun mədəni irsinə verdiyi layiqli töhfədir. Göründüyü kimi, Heydər Əliyev Fondu təkcə İslam dininə aid tarixi-dini abidələrin bərpasına deyil, eləcə də hətta Azərbaycandan kənarda olan digər dinlərə məxsus abidələrin də bərpasına qayğı ilə yanaşır ki, bu da bizim tolerant və sülhpərvər xalq olduğumuzun əyani sübutudur.



Azərbaycan xalqı da bugünədək məhz milli mənəvi dəyərlərinə bağlılığı sayəsində özünün mövcudluğunu, milli identikliyini, özünəməxsusluğunu qoruyub saxlaya bilib. Azərbaycan xalqının ən böyük sərvətlərindən biri onun zəngin milli mədəni,

maddi, ədəbi, dövlətçilik irsinə sahib olmasıdır. Bu zəngin mənəvi irs xalqımız tərəfindən əsrlər boyunca yaradılıb və onun böyük bir hissəsi bugünədək qorunub saxlanıb. Bu zəngin irslərdən biri də muğamlarımızdır.

Muğam xalqımızın incisidir, xalqımızın genetik kodudur. Nəsillərdən-nəsillərə keçərək muğam Azərbaycan xalqının qan yaddaşında qalıb, xalqımızın ürəyində əbədi iz buraxmışdır. YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın yazdığı kimi: "Muğam bizim qəlbimizin xüsusi məqamıdır… Muğam dəryasının sualtı cərəyanları çoxdur, bu cərəyanlara daldıqca biz insan hisslərinin sirli yelpazəsinin istiliyini hiss edə bilirik, varlığı onun bütün müxtəlifliyində dərk edirik. Elə buna görə də biz muğama dönə-dönə qayıdırıq. O artıq bizim həyatımızın hissəsi deyil, o bizim özümüzdür".

Dövlətimizin muğama olan böyük qayğısı nəticəsində bu sənət gündən-günə nəinki yeni zirvələri fəth edir, həmçinin yeni layihələrin yaranmasına təkan yaradır: muğam jurnalı, muğam antologiyası, muğam-ensiklopediyası…

Və nəhayət, Azərbaycanda qeyri-adi, gözəl, orijinal bina ucaldı - Muğam mərkəzi. Bu möhtəşəm binada muğama həsr olunmuş olduqca maraqlı konsertlər, festivallar, yüksək səviyyəli gecələr keçirilməyə başlandı.



## Adət-ənənələri və milli-mənəvi dəyərləri yasadanlar.

Bu gün adət-ənənənin, milli-mənəvi dəyərlərin kökə qayidış istiqamətində, milli mənsubiyyətimizin təkcə formal surətdə deyil, həm də məzmun baxımından təsbit olunması uğrunda aparılan mübarizə həm də elmi-nəzəri əsaslara söykənməlidir. Xüsusilə televiziyanın, mətbuatın, milli mənəviyyata yad elementlərlə dolduğu bir vaxtda mənəvi mühitin qorunması vacib məsələ kimi realizə olunmalıdır.
Müasir dövrdə ən aktual problemlərdən biri qloballasma prosesi ilə milli adət-ənənələr arasinda optimal nisbətin tapılmasıdır. Qloballaşma prosesi elm, texnika, texnologiya ilə ümumbəşəri dəyərlərlə yanaşı milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə də sirayət etməyə cəhd göstərir. Istər düşünülmüş şəkildə, istərsə də qərəzsiz olaraq fərqi yoxdur. Belə bir şəraitdə ilk növbədə nələri qorumaq lazım olduğunu,

məhz hansı məsələlərdə məqsədyönlü surətdə ənənəçi, konservator olmağın labüdlüyünü ziyalılar müəyyənləşdirilməlidir.

## Milli-mənəvi dəyərlər bədii ədəbiyyatda formalaşır

İnsanın mənəviyyatı, bir tərəfdən, genetik əsaslara malik olsa da əsasən sosial-mənəvi mühitin təsiri ilə formalaşır. Burada cəmiyyətin mədəni-mənəvi həyatı, insanın yetişdiyi mühitin kulturoloji aspektləri mühüm rol oynayır.

İnsanın formalaşdığı ictimai mühit mövcud dəyərlər sistemi, sosial və hüquqi normalar, mövcud dövlət quruluşu, iqtisadi münasibətlər, ailə münasibətləri, təhsili və s. bu kimi elementlərin sintezindən ibarətdir. Mədəni-mənəvi mühit isə cəmiyyətin müvafiq rakursu ilə yanaşı əvvəlki nəsillərdən qalmış sənət əsərləri, xüsusən bədii ədəbiyyat təsiri ilə formalaşır. Bütün bunlar insanların bir mütəxəssis və bir vətəndaş kimi yetişməsində mühüm rol oynayır.

Bayağı mədəniyyətin ayaq açıb yeridiyi, xarici ölkələrdən milli-mənəvi mühitimizə yabançı olan təsirlərinin gücləndiyi bir vaxtda sosial-mənəvi ekologiyanın problemlərini öyrənmək və lazım gəldikdə həyəcan təbili çalmaq lazımdır.

## Adət-ənənənin milli dəyər kimi yaşaması ailədən başlayır.

Hər bir xalqın mövcudluğunun əsas göstəricisi olan adət və ənənələr, milli-mənəvi dəyərlər onun tükənməyən ən qiymətli sərvətidir. Milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir.

Adət-ənənənin milli dəyər kimi yaşamasi ailədən başlayır və cəmiyyət tərəfindən qəbul edilir, millətin, dövlətin atributinə çevrilərək gələcək nəsillər tərəfindən qorunur. Azərbaycan ailəsinin uzunömürlülüyü məhz bu ənənəyə söykənir. Ağsaqqal, ağbirçək məsləhəti gənclərin ailə qurmasinda mühüm rol oynayır ki, bu da ailənin uzunömürlülüyünün əsas göstəricisidir.

Dünya şöhrətli yazıçı Aleksandr Düma təsadüfi deyil ki, Azərbaycan adət-ənənələrini çox bəyənmiş və öz xatirələrində yazmışdır. Böyük rus yazıçısı Lev Tolstoy "Hacı Murad" əsərini məhz Azərbaycan adət-ənənələri əsasinda yazmış, kişilik, mərdlik, namus, qeyrət, alicənablılıq və s. kimi dəyərləri yüksək qiymətləndirmişdir.

Dünya xalqları arasinda milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutur.

Milli-mənəvi dəyərlər insanı cəmiyyətdə formalaşdıran, təkamülə aparan davranış qaydalarıdır. Bu qaydalar dünya svilizasiyasının təməli qoyulandan yaranmağa başlamışdır. Dəyərlərin formalaşması prosesi nəticədə dünyada hər bir fərdin haqlarını daha dolğun təsdiq edən xüsusiyyətlər yaranır.

Milli-mənəvi dəyərlər insanı cəmiyyətdə formalaşdıran, təkamülə aparan davranış qaydalarıdır. Bu qaydalar dünya svilizasiyasinin təməli qoyulandan yaranmağa başlamışdır. Dəyərlərin formalaşması prosesi nəticədə dünyada hər bir fərdin haqqlarını daha dolğun təsdiq edən xüsusiyyətlər yaranır.

Hər bir xalqın, millətin mövcudluğu onun ana dilinə, adət- ənənələrinə, öz mədəniyyətinə, ədəbiyyatına, tarixinə bağlılığından asılıdır. Azərbaycan xalqı bu günədək məhz milli mənəvi dəyərlərinə sadiqliyi sayəsində özünün mövcudluğunu, milli özünəməxsusluğunu qoruyub saxlaya bilib. Xalqımızın ən böyük sərvətlərindən biri onun zəngin milli mədəni, maddi, ədəbi, dövlətçilik irsinə sahib olmasıdır. Bu zəngin mənəvi irs xalqımız tərəfindən əsrlər boyunca yaradılıb və onun böyük bir hissəsi bu günədək qorunub saxlanıb. Bu baxımdan, milli dövlətin formalaşması və əbədiyaşar olması onun mənəvi əsaslarının milli dəyərlərlə nə dərəcədə səsləşməsindən asılıdır.

**Milli-mənəvi dəyərlərin gələcək nəslə aşılanması.**

Milli dəyərlərə söykənən dövlət quruluculuğu xalqın milli şüuruna, mənəvi dəyərlərinə istinad edir və dediklərimizin gənc nəsilə aşılanması ən vacib məsələlərindən biridir.

Bu mənada akademik Ramiz Mehdiyevin "Dövlətçilik hissi və milli-mənəvi dəyərlər sistemi" məqaləsindəki bir fikri xüsusi əhəmiyyət kəsb edir.

"Milli-fəlsəfi fikrin, əxlaqın, adət-ənənələrin yeni nəslə çatdırılması, davam etdirilməsi, üçün milli-mənəvi abidələrin, bədii ədəbiyyatın rolu həqiqətən böyükdür. Bir millət üçün canlı tarix haradasa qırılanda, onun inkişafının daxili hərəkətverici qüvvələri məhdudlaşdırılanda, inkişaf kənar qüvvələrlə məqsədyönlü surətdə başqa səmtə istiqamətləndiriləndə milli genin heç olmazsa başqa ampulada, fövqəltarixi formalarda; fikirlərdə, xatirələrdə, ədəbiyyatda, incəsənətdə, yaşadılması zərurəti yaranır. Xalq başqa imperiyaların işğalı altında qaldıqda, başqa əqidələrin rəsmi təsir dairəsinə düşdükdə milli ruhu öz şəxsi həyatı bahasına, diri-diri yandırılması, dərisinin soyulması hesabına da olsa yaşadan və bir əmanət kimi yeni nəsillərə ötürən həqiqi böyük ziyalılar estafeti öz əllərinə almalı olurlar".

Bu mənada dəyərlərin yaşamasında ən ağır yük inanılmış, içində milli-mənəvi dəyərlərə söykənən VƏTƏN sevgisi yaşadan ziyalıların çiyninə düşür. Bir sözlə yuxarıda qeyd edildiyi kimi, milli-mənəvi dəyərləri, adət-ənənələri qələm adamları, ədəbiyyat və incəsənət xadimləri, bir sözlə böyük ziyalılar yaratdıqları əsərlərdə yaşatmiş, gələcək nəsillərə çatdırmışlar.

## Azərbaycan adətləri, ənənələri və mərasimləri

Adətlər, ənənələr və mərasimlər Azərbaycan xalqının zəngin mədəni irsidir. Ailə-məişət adətləri nəsildən-nəslə ötürülür. Adətlərin bir neçə nəsil boyu yaşaması da onların uzun ömürlü olmasından və tez-tez təkrar edilməsindəndir. Ənənələr də qanunlar kimi zaman ötdükcə yaranır, vaxtı keçəndə yeniləri ilə əvəz olunur. Lakin elə ənənələr də olur ki, klassik nümunələrə dönür, yaşayır, insanların həyat tərzində həmişə özünü göstərir.

Ənənə və adətlərin yaranması və inkişafı həyat tərzinin mühüm tərkib hissəsi olmaq etibarilə, tarix boyu nəsildən-nəslə keçən sosial təcrübə, əmək üsulları və vərdişləri, insanların ailə və məişətdəki davranış

normalarını və qaydalarını özündə təcəssüm etdirir. Ənənə mədəni irsin saxlanılmasının bir formasıdır.




*Toy mərasimi

*Qız bəyənmə

*Nişan

*Toy

*Azərbaycan xalqının qonaqpərvərliyi

*Azərbaycanlıların Cay mərasimi və çörəyə hörmət

*Novruz bayramı

*Azərbaycan xalq oyunları

*Dini mərasimlər və  bayramlar

*Azərbaycan xalqının vətənpərvərliyi

*Azərbaycan milli musiqisi

*Azərbaycan dekorativ-tətbiqi sənəti

*Xalçaçılıq

*Bədii tikmə

*Ağacoyma sənəti

*Metalişləmə sənəti

*Milli geyimlər

## BÖLMƏ IV:

## Kitabxanalarda Milli-Mənəvi dəyərlərimizin rolu

Milli-mənəvi dəyərlər tarixən xalqın milli ruhunu, estetik duyumunu və sənətkarlıq məharətini özündə ehtiva edib. Bəllidir ki, əxlaq normalarının, adət-ənənələrin yaradıcısı xalqdır. Hər birimiz erkən çağlardan milli adət-əhatəsində böyüyürük. Həyatda qarşılaşdığımız hər bir mənəvi dəyəri öyrənir və mənimsəyirik.

Beləliklə, həmin mənəvi dəyərlər dövrün, mövcud şəraitin və ictimai quruluşun ruhuna, tələblərinə uyğun cilalanir, yeni forma və məzmun kəsb edir. Eyni zamanda şəraitə uyğun mənəvi dəyərlər adət və ənənələr yaranır. Bu məfhumlar həyatın bütün dövrlərində insan münasibətlərinin tənzimləyicisi və istiqamətvericisi olub. Məhz mənəvi dəyərlərin bu xarakterik cəhətlərinə görə sovet sistemində onlardan bir tərbiyə vasitəsi kimi geniş istifadə edilib.

Mənəvi dəyərlər daha çox ictimai rəyə əsaslanan yazılmamış ünsiyyət qanunları kimi fəaliyyət göstərir. Adət-ənənə ilə əxlaq arasında qırılmaz bağlılıq var. Hər bir ənənə müəyyən əxlaqi məna daşıyır. Onlara laqeyd qalmaq insanlar arasında münasibətlərin pozulmasına, şəxsiyyətlə kollektiv və cəmiyyət arasında ziddiyyətlərin əmələ gəlməsinə səbəb olur. Çünki milli-mənəvi dəyərlər xalqın milli ruhunu, estetik ruhunu, estetik duyumunu, sənətkarlıq qüdrətini özündə yaşadır. Çeşidli folklor nümunələrimiz məhz adət-ənənələrimizin işığında intişar tapır. Hazırda bu mənəvi dəyərlər zəngin mədəni irs olmaqla bərabər, eyni zamanda milli özünəməxsusluğun ifadə vasitəsinə çevrilib.

Bu gün milli adət və ənənələrimiz musiqi, mahnı nümunələri, əyləncəli oyunlarla zəngin olmaqla yanaşı, insanların davranışlarına əsaslı təsir göstərən əxlaq normalarının da daşıyıcıları hesab olunur. Belə ki, adət və ənənələr mədəni tədbirlər üçün rəmzi məna kəsb edir və onlara milli məzmun gətirir. Məsələn, Novruz bayramı ərəfəsində keçirilən bir çox mədəni tədbirlərdə səmənidən, xalqımızın qədim milli geyimlərindən və s. milli-rəmzi atributlardan geniş istifadə olunur.

Milli adət-ənənələrin öyrənilməsi və onların mənəvi dəyərlər sisteminə çevrilməsi həmişə aktual olub. Çünki, tarixin bütün dövrlərində millətin xə xalqın ictimai şüur  səviyyəsini əks etdirən adət və ənənələr həm də mədəni tərəqqinin, əxlaqi xüsusiyyətlərin göstəriciləri kimi çıxış edib. Digər tərəfdən, hər bir xalqın bədii yaradıcılıq nümunələri adət-ənənələr məkanında klassikləşib və mədəni irsə çevrilib.    Yeni yaranan mənəvi dəyərlər və varislik prinsiplərinə uyğun olaraq əski adət və ənənələrdən bəhrələnib. Lakin bu, mənəvi dəyərlərin inkişafina, yeniləşməsinə mane olmayıb. Sadəcə olaraq adət və ənənə formasında mənəvi mədəniyyətin tarixi təcrübəsinə əsaslanan yeni istiqamətləri yaranıb. Milli-mənəvi dəyərlər  millətin müqəddəs, toxunulmaz xəzinəsidir, onun tərəqqisi milli varlığın mövcudluğu və əbədiliyini tərənnüm edir.
Hər bir xalqın tarixi, mentaliteti, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərləri vardır. Azərbaycanın qədim tarixindən bizə miras qalmış milli mədəniyyətimiz yeni nəsil tərəfindən qorunub saxlanılmalı, zənginləşdirilərək gələcək nəsillərə ötürülməlidir. Belə ki, mədəniyyət dəyişdirilmədən, təkmilləşdirilmədən və zənginləşdirilmədən öz varlığını qoruya bilməz. Gənc nəsil dünyanın mütərəqqi mənəvi dəyərlərindən bəhrələnərək sağlam əhval - ruhiyyədə tərbiyələndirilməlidir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında “Mədəni İrsimizin rəngarəng təqdimatı” adlı sərgi keçirilməsi nəzərdə tutulmuşdur.  Beləki, sərginin iki gün  keçirilməsi məqsədəuyğundur.  Birinci gün sərgidə Azərbaycanın turizm potensialının, mədəniyyətinin, musiqisinin, xalq oyunlarının, milli adət-ənənələrinin, çay dəstgahının təbliğ edilməsi nəzərdə tutulur.

İkinci gün isə sərgidə əl işləri sənətkarlığı nümayiş etdirilir. Burada xalça sənəti, toxuma, tikmə və s. kmi əl işlərinin nümayişi nəzərdə tutulur. Həmçinin bu sərgilərə “Azərbaycanın milli  mətbəxi”  adlı sərgini də daxil etmək olar.

**Azərbaycan mətbəxi** — dünyanın qədim, zəngin və dadlı mətbəxlərindən biridir. Azərbaycan milli mətbəxi təkcə xörəklər, onların hazırlanma texnologiyasının üsulları deyil, həm də maddi mədəniyyətin əsas hissələrindən biridir.

**I Sərgi: “Mədəni İrsimizin rəngarəng təqdimatı”**

**II Sərgi: “Milli tariximiz, ənənələrimiz, dəyərlərimiz”**

**III Sərgi:”Azərbaycan mətbəxi”**

**“Milli tariximiz, ənənələrimiz, dəyərlərimiz” adlı rəsm və foto sərgisi:**









**ƏL İŞLƏRİ:**







Ümummilli lider xalqın qədim mili-mənəvi dəyərlərini müasirliklə bağlayaraq deyirdi: Həyatda uğurla yaşamaq üçün xalqımızın, millətimizin milli-mənəvi dəyərlərinə sadiq olmaq lazımdır, bu milli-mənəvi dəyərləri ümümbəşəri dəyərlərlə birləşdirib müasir həyat tərzi keçirmək lazımdır.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində keçirilən tədbirlərin siyahısını bir az da uzatmaq olar. Amma, necə deyərlər “görünən dağa nə bələdçi”. Bir azərbaycanlı kimi milli-mənəvi dəyərlərimiz barəsində düşünərkən sevinir, qürurlanırıq. Dərindən düşünsək, bir daha şahidi olarıq ki, milli-mənəvi dəyərlərimiz həqiqətən bizim qürur mənbəyimizdir.



Ümumilli liderimiz H.Əliyev məruzə və çıxışlarında, habelə gənclərlə, ordu sıralarında xidmət edən əsgərlərlə görüşlərində gənc nəslin milli ruhda tərbiyə olunmasında mədəniyyətimizin, mənəvi dəyərlərimizin müsbət təsirini xüsusi vurğulayaraq demişdir. “ Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıblar və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir”. O, Azərbaycan Respublikası gənclərinin I forumundakı məruzəsində qürurla söyləmişdir: “Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər heç vaxt vətəninə, xalqına ögey münasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasinda tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi , dilimizi, keçmişimizi, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz.”

Bu fikirlər bir daha göstərir ki, milli-mənəvi dəyərlər xalqın mənəvi sərvəti, mənəvi xəzinəsidir.

Gənc və yeniyetmələrin dünyagörüşünün, mənəvi aləminin, vətənpərvərlik hisslərinin inkişaf etdirilməsində milli-mənəvi dəyərlərin rolu çox böyükdür. Milli-mənəvi dəyərlər xalq yaradıcılığında, folklorumuzda təşəkkül tapıb inkişaf etdirilən və nəsildən-nəsilə ötürülərək bu günümüzün mədəni tərəqqisində misilsiz əhəmiyyət daşıyan keyfiyyətlərdəndir.

Qədim adət-ənənələrimiz mədəniyyətin hər bir sahəsinin, eləcə də mədəniyyət evlərinin, saraylarının, muzeylərinin, kitabxanalarının işinin təşkilində diqqət mərkəzində olmalıdır. Soydaşlarımızın mənəvi tərbiyəsi, maariflənməsi, şəxsiyyətin formalaşması və asudə-vaxt problemi mədəniyyət müəssələrinin ən ümdə fəaliyyət sahəsi olan bədii-kütləvi iş ilə sıx bağlıdır.

Milli adət-ənənələr və unudulmuş folklor nümunələrimizin tədqiqi, bərpası, xalqı düşündürən, onun sevinc və kədərinə səbəb olan hadisələrin tədbir şəklində ifadəsi, unudulmaz və əlamətdar hadisələrin kütləvi şəkildə  qeyd edilməsi bədii-kütləvi işin vəsifəsi, insanların asudə vaxtlarının düzgün həlli, mədəni səviyyələrinin yüksəldilməsi, istirahət və əyləncəyə, bayram şənliklərinə cəlb edilməsi isə onun əsas mahiyyətidir.

Şəhər və rayon mədəniyyət evləri, sarayları, klubları, muzey və kitabxanalarının, istirahət və və mədəniyyət parklarının, olimpiya komplekslərinin, turizm mərkəzlərinin fəaliyyətinin məğzini təşkil edən

bədii-kütləvi iş cəmiyyətin mədəni həyatını zənginləşdirir, istirahətinin mənalı və səmərəli keçməsinə yardımçı olur.
Respublikamızda elə bir şəhər, rayon, qəsəbə və kənd yoxdur ki, orada müxtəlif səpkidə kütləvi tədbirlər təşkil olunmasın.

Bədii-kütləvi iş mədəniyyət müəssələrinin əsas fəaliyyət sahəsi olmaqla yanaşı, təbliğat, təşviqat və incəsənət sahələrini əhatə edərək, əsasən iki hissəyə bölünür:
I-sadə iş üslubu olub, illüstrasiyalardan istifadə etməklə tematik gecə və konsertlərin , şifahi jurnalların və digər kütləvi tədbirlərin kino-konsert zallarında (qapalı binalarda) keçirilməsidir;
II-mürəkkəb iş üslubu olub, meydanlarda, park və xiyabanlarda təşkil olunan bayramları, gəzintiləri, və digər kütləvi tədbirləri nəzərdə tutur. Belə tədbirlərdə bədii-kütləvi işin başlıca sahəsi olan teatrlaşdırmadan geniş istifadə edilir.
Xalqımızın milli, tarixi-ənənələri bayramları və mərasimləri kütləvi tədbirlər içərisində xüsusi yer tutur. Bu bayramlarda qədim mədəniyyətimiz, xalqımızın əsrlər boyu yaratdığı milli adət və ənənələr, bədii sərvətlər, tarixi hadisələr əks olunur. Bayram və mərasimlər həmçinin, insanların hiss və duyğularına təsir göstərir, mənəvi keyfiyyətlərini, formalaşdırır, cəmiyyətin mədəni həyatını zənginləşdirir, istirahətin, asudə vaxtın mənalı, səmərəli keçməsinə xidmət edir.
Bayramların mənəvi dəyərini yüksək qiymətləndirən fransız filosofu J.J.Russo demişdir: “Əgər xalqı zəhmətkeş və yaradıcı etmək istəyirsinizsə, ona bayram etmək imkanı verin”.
Platon bayramları dövlətin sabitliyi hesab edərək göstərirdi ki, tərbiyə işində buraxılan qüsurları bayramlar vasitəsilə düzəltmək mümkündür.
Aristotelə görə isə, insan təbiəti elədir ki, o təkcə zəhmət çəkmək deyil, həm də öyrənmək  və bayram etmək istəyir. Buna onun hərtərəfli haqqı var.
Göründüyü kimi, bayram və mərasimlər insan həyatını mənalandıran başlıca amillərdəndir. Burada onlar görüsür, ünsiyyət qurur, sevinc və kədərlərini bölüşdürürlər.
Novruz bayramı, Ramazan bayramı, Qurban bayramı, Respublika günü, Qurtuluş günü, Konstitusiya günü və s. bu kimi bayramlarımız və tarixi günlərimizlə yanaşı, cəmiyyətin hər bir inkişaf mərhələsində digər mədəniyyətlərə inteqrasiyamız genişləndikcə, həyatımıza və məişətimizə yeni beynəlxalq bayram və tarixi günlər də daxil olur. Onların bəzilərinin kökləri qədim dövrlərə təsadüf etsə də, ölkəmizdə son zamanlardan bəri

müasir bayramlar kimi qeyd olunmağa başlamışdır. Hər bir tarixi mərhələdə olduğu kimi müasir dövrdə də bayramlar, tarixi hadisə və günlər böyük təntənə ilə qeyd edilir. Xalqımız qədim adət-ənənələrlə yanaşı, həyatımızda yeni formalarda təcəssüm olunan mədəni sərvətimizi bu gün də yaşadır və inkişaf etdirir.
Gəlin bir daha, müasir həyatımiza, məişətimizə, mənəviyyatımıza uyğunlaşmış bayramlar və tarixi günlərə bir daha nəzər salaq.
Dünya xalqları arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı ustadlığı və təbliğ etdiyi bəşəri ideyaları,adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutur.

Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq əsrimizə, yeni yüzilliyə qədər gəlib çatmışdır.

Xalqın toy-büsat mərasimi, bayram adət-ənənələri, Novruz mərasimləri, islam dininin təmizlik, düzlük,insanlıq kimi bəşəri, ali hissləri tərbiyə edən dəyərləri onun milli-mənəvi dəyərlərini özündə yaşadır. Azərbaycan xalqının böyük tarixi, zəngin mədəniyyəti var.
Kitabxanalarda keçirilən hər bir kütləvi tədbir vasitəsilə mənəvi dəyərlərin təbliğinə diqqət yetirilməlidir.

Məsələn:"Heydər Əliyev və milli – mənəvi dəyərlər", "Milli – mənəvi dəyərlərin qorunması", "Gənc nəsil və milli dəyərlər", "Ailə təhsil və milli – mənəvi əxlaqi dəyərlər".

Milli – mənəvi dəyərlərin təbliği üçün, "Cənnət görmək istəyən, Azərbaycana gəlsin" adlı sərgidən də istifadə oluna bilər.

Diyarşünaslıq kitabxana sərgilərinin əsas funksiyası oxucalara öz diyarlarının milli dəyərləri, tarixi və mədəniyyəti haqqında biliklərə yiyələnmək imkanlarını təqdim etmək, müxtləlif kateqoriyalı oxucular üçün mövzu sərgiləri vasitəsilə ənənələrin varisliyini təmsil etməkdir.

Kitabxanalar Azərbaycan tarixinin şanlı səhifələrini yad etmək, tariximizi bugünki və gələcək nəsillərə geniş şəkildə anlatmaq, xalqımızın, millətimizin tarixini, milli mənəvi dəyərlərini nümayiş etdirmək məqsədilə bir sıra söhbətlər, sərgilər keçirə bilərlər.

Milli-mənəvi dəyərlərin uşaq və gənclərin sağlam, milli – mənəvi

dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə kömək etmək məqsədilə “Milli-mənəvi dəyərlərimizin inciləri” adlı sorğu keçirmək olar.

Sorğunu məktəblilər arasında keçirmək daha yaxşı olar.

Sorğu keçirərkən uşaqların yaşı nəzərə alınmalı, mövzu barəsində qısa arayış, açıqlama verilməlidir.

Sorğunun suallarını təxmini belə tərtib etmək olar:
-Milli dəyərlər dedikdə nə başa düşürsünüz?
-Milli dəyərlər haqqında nə bilirsiniz?
-Milli dəyərləri qorumaq üçün nə etmək lazımdır?
-Milli dəyərlərin təbliğində kitabxanalar nə edə bilər?
-Muğamlarımız haqqında nə bilirsiniz?
-Milli qoruq və abidələrimizdən hansılarının adlarını çəkə bilərsiniz?

Sorğunun məqsədi məktəblilərin,yeniyetmələrin mənəvi dəyərləriniz haqqında olan biliklərini yoxlamaq, ümumilikdə onları milli-mənəvi dəyərlərimiz haqqında maarifləndirməkdir.

Ana dilimizin təbliği ilə bağlı kitabxanada “Misilsiz xəzinə “, “ Dilin siyasətdə rolu”,”Ana dilim – ulu dilim” və s. adlarda tədbirlər keçirmək olar. Dilimizin təbligi ilə bağlı kitabxanalarda təşkil edilən bütün tədbirlər, söhbətlər, müzakirələr,ədəbi-bədii gecələr oxucuların dilimizə olan məhəbbət hisslərini formalaşdırır.

Azərbaycan xalqının milli – mənəvi irsinin təcəssümü olan Novruz bayramının dövlət səviyyəsində qeyd edilməsi onun dünya azərbaycanlıları arasında daha geniş yayılmasına da zəmin yaratmışdır.

Soydaşlarımız yaşadıqları ölkələrdə Novruz təntənələrini keçirməklə xalqımızın tarixi dəyərlərini, ənənələrini təbliğ edirlər.

Xalqımızın milli dəyərlərini təbliğ etmək üçün MKS və filiallarda “Novruzum,yazım mənim”,”Elimizə bahar gəlir”,adlı tədbirlər keçirmək olar.

Tədbir mövzu ilə bağlı şer, ədəbi kompozisiya və səhnəciklərlə

tamamlanır. Kitabxanaçı şənliyin mövzusuna uyğun ədəbiyyat sərgisi, ədəbi oyunlar hazırlayır.

Kitabxanaçı şagirdlərin köməyi ilə bayramın simvolu olan keçəl və kosanı tamaşa üçün hazırlayır.

Tədbirin keçirilməsində dekorasiya musiqidən , aktyor geyimlərindən istifadə edilməlidir.

Milli mənəvi dəyərlər adət-ənənələrlə nəsildən –nəslə ötürülən yazılmamış qayda-qanunlardır, onların mənəvi ünsürlərdən qorunması və təbligində kitabxanaçıların üzərinə böyük məsulliyyət düşür.

Bu gün bizim vətandaş borcumuz milli-mənəvi dəyərlərimizə dogma torpagımıza, doğma ana dilimizə,mədəniyyətimizə,böyük və zəngin tariximizə,millətimizə sadiq olmaqdan və onu təbliğ etməkdən ibarətdir.

İndi hər bir kitaxanaçı Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və bir sıra rayonlarının erməni təcavüzünə məruz qaldığı bir zamanda gənc nəsildə torpağa, xalqa məhəbbət, milli dəyərlərimizə qaygı, vətənin ərazi bütövlüyünə və müstəqilliyinə sədaqət, yüksək ideyalar aşılanmasında ön sırada getməli, oxucuların bütün zəruri tələbatlarını ödəməyə çalışmalıdır.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında “Mədəni irs ölkələr və xalqlar arasında dialoq körpüsüdür” adlı söhbət keçirilir. Söhbətdə əsasən Azərbaycanda çox qədim zamanlardan belə məşhur olan Çövkən xalq oyunlarının yaranmasından danışılır. Kitabxanaçı söhbətə belə başlayır:



Çox qədim zamanlarda Şərq xalqlarının, o cümlədən türklərin atla bağlı müxtəlif milli oyunları meydana gəlmişdi. Onların arasında Azərbaycanda, eləcə də Orta Asiyada çovkən kimi tanınan və yaxın-uzaq ellərə müxtəlif adlar altında yayılan oyun xüsusi yer tutur. Min illər öncə Azərbaycanın dilbər yurdu Qarabağda sonralar ayaq səsi dünyanın çox yerlərindən gələcək Qarabağ atlarının üzərində igidlərin oynadığı bu oyun cəsurluq, çeviklik rəmzi idi. Xalqın sevə-sevə tamaşa etdiyi çovhən, eləcə də çürpapaq, sürəyçi, baharbənd, yaylıq, piyaləox, çərdəkqaçırdı kimi milli atüstü oyunlarımızda ər oğullar hünər göstərər, el-obada ad-san qazanardı.

"Tarixin atası" sayılan Herodot eramızdan V əsrdə yazırdı ki qədim Azərbaycan dövləti olan Midiyada çox şahanə atlar saxlayırlar. Ondan dörd əsr sonra başqa bir məşhur yunan tarixçisi Strabon Qafqaz Albaniyasından bəhs edərkən bu yerlərdə atların çox hündür olduğunu yazırdı. Bu faktlar Azərbaycan torpağının ta qədimdən Şərqdə atçılığın inkişaf etdiyi ölkə olduğunu göstərir. Ölkəmizdə əsrlər boyu yetişdirilən at cinsləri arasında Qarabağ, Qazax, (Dilboz), Quba və Şirvan atları geniş yayılmışdı. Tarixi mənbələrin verdiyi məlumatlara görə, Makedoniyalı İsgəndər, İran hökmdarı Dara kimi sərkərdələr öz süvari qoşunlarını Qarabağ atları hesabına gücləndirmişlər.

Qarabağ atının tarixi şöhrətini məşhur alim S.P.Usupov belə qiymətləndirmişdir: "İngilis təmizqanlı atı Avropa atçılığında nə kimi rol oynamışsa, Qarabağ atı da Asiya atçılığının inkişafinda eyni əhəmiyyət kəsb etmişdir". At üzrə mütəxəssis D.Dubenski XIX əsrin sonlarında yazırdı ki, Cənubi Qafqazda bir sıra at cincləri olsa da, əslində onların hamısı Qarabağ atının törəməsidir.

Ötən əsrin ortalarında Qarabağda yetişdirilən atların səs-sorağı Avropadan gəlirdi. 1949-cu ildə Ağdam ərazisindəki Göytəpədə, Qarabağ at zavodunda yetişdirilən "Zaman" adlı qızılı rəngli ayğır 1956-ci ildə SSRİ hökuməti tərəfindən Britaniya kraliçası Yelizavetaya hədiyyə göndərilmişdir.

Çövkən oyununun Azərbaycanda, əsasən Qarabağ torpağında çox qədimdən məşhur olduğunu tarixi faktlar da təsdiqləyib.

Azərbaycan ədəbiyyatında və incəsənətində cövkənin izlərinə çox rast gəlinir. "Kitabi-Dədə Qorqud" boylarında və Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərində gövkəndən bəhs edilir. Ədəbi nümunələrdən də məlum olur ki, Azərbaycanda çovkən oyununda təkcə kişilər deyil, qadınlar da iştirak edib. Nizaminin "Xosrov və Şirin" poemasında Şirin çovkən meydanında Sasani hökmdarı Xosrov Pərvizdən geri qalmır. Şirin ilə bərabər qızların da bu oyunda iştirakı təsvir edilir.

Mədəni irsimizin zəngin səhifəsi olan atüstü milli oyunlarımızı XXI əsrdə yenidən gündəmə gətirməklə milli-mənəvi dəyərlərimizə sahib çıxdığımızı sübut etdik.

Bu irsin qorunub saxlanılması, qədim tarixə malik atçılıq ənənələrinin bərpası, inkişaf etdirilməsi, ölkəmizdə atçılıq turizminin təbliği, gənc nəsildə bu sahəyə maraq oyadılması məqsədilə artiq bir neçə ildir ki, Mədəniyyət və Turizm Nazirliyinin Respublika Atçılıq Turizm Mərkəzi tərəfindən ənənəvi olaraq çövkən oyunları keçirilir. Atüstü milli oyunlarımızı diriltmək isə keçmişimizlə bu günümüz arasında əlaqələri möhkəmlətmək, zəngin milli-mənəvi dəyərlərimizi təbliğ etməkdir.

Lakin bu gün çövkəni tariximizə, mədəni irsimizlə bəxş edən məşhur Qarabağ atlarının yetişdirilməsi, Qarabağ atçılıq məktəbinin inkişafı bəlli səbəblər üzündən böyük çətinliklərlə üzləşir. Məhz bunu nəzərə alaraq ölkəmiz Qarabağ atüstü oyun ənənəsi olan çövkənin beynəlxalq miqyasda tanınmasına, bu irsin qorunub saxlanılmasına, inkişafına dəstək verilməsi məqsədilə UNESCO səviyyəsində səmərəli iş apararaq qürur doğuran nəticəyə nail oldu.

Bir neçə il davam edən çalışmaların, gərgin fəaliyyətin yekunu olaraq 3 dekabr 2013-cü il tarixdə UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin Bakıda keçirilən 8-ci sessiyasında Qarabağ atüstü oyun ənənəsi çövkən qurumun "Təcili

qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs Siyahısı”na daxil edildi.

Milli-mənəvi dəyərlərin qorunub saxlanılması və nəsillərə çatdırılması yönümündə təşkil olunan tədbirlərdən biri də görüşdür. F. Köçərli adına Respublika Uşaq Kitabxanasında təşkil olunan görüşə Azərbaycan Milli Klunariya Assosiasiyasının prezidenti Tahir Əmiraslanov dəvətlidir. Tədbirin açıq elan olunması üçün söz kitabxananın direktoru Səhla Qənbərovaya verilir. Səhla xanım tədbirdə iştirak edən qonaqları salamladıqdan sonra Tahir Əmiraslanovun həyat və yaradıcılığından bir qədər məlumat verir. Sonra söz Tahir Əmiraslanova verilir. Tahir Əmiraslanov öz çıxışında bir daha qeyd edir ki, belə tədbirlərin keçirilməsində məqsəd Azərbaycan milli mətbəxinin, milli yeməklərinin yaddan çıxmaması və unudulmamasıdır. Bunun üçün milli mətbəximizlə bağlı bir çox kitablar nəşr olunur ki, bunlardan “Azərbaycan kulinariyası ensiklopediyası”, “Mətbəx dastanı, “Novruz süfrəsi” və s. kiatblarını misal göstərmək olar. Bu gün bu kitabların təqdimatının keçirilməsi məqsədəuyğun olardı. Məqsədimiz Azərbaycan milli mətbəxinin tarixinin, xalqımızın tarixi qədər qədim olmasını dünya xalqlarına sübut etməkdən ibarətdir.









F. Köçərli adına Respublika Uşaq Kitabxanasında "Milli dəyərlər milli kimliyimizdir" adlı elmi konfransın keçirilməsi nəzərdə tutulur. Milli dəyər və milli kimliyimz milli dəyərlərin öyrənilib yaşadılması istiqamətində görülən işlərin başlanğıcıdır. Tədbirdə iştirak edən ziyalılar bir daha qeyd etdilər ki, milli dəyərlərin qorunub yaşadılması istiqamətində görülən işləri müntəzəm olaraq daha geniş miqyasda davam etdirmək lazımdır. Və bu hər birimizin üzərinə düşən mühüm vəzifələrdəndir. Çünki, milli dəyərlər bizim varlığımızın əsasıdır.

Yuxarıda qeyd etdiyimiz kimi, milli dəyərlərimizin qorunub yasadılması və gələcək nəsillərə çatdırılması üçün təşkil olunan tədbirlərdən biri də ekskursuyadır. Ekskursiyanı təşkil etməyimizdə məqsəd oxucuların maariflənməsi və onların dünya görüşlərinin artırılmasından ibarətdir.

"İçəri şəhərə xoş gəlmisiniz! adı altında təşkil olunan ekskursiyada kitabxananın kollektivi və məktəblilər iştirak edir. Kitabxanaçı İçəri şəhərin tarixi ilə bağlı bir qədər məlumat verir.

İçəri Şəhərin çox qədim tarixi vardır. Əcdadlarımızın inşa etdirdiyi bu şəhərin dəqiq tarixini müəyyən etmək çox çətindir, lakin onun minilləklərlə mövcudluğunu bu gün də ərazisində yerləşən abidələr də təsdiqləyir.

Son illər İçəri Şəhərdə görülən işləri cəmiyyət təqdir edir. Bu gün memarlığımızın və mədəniyyətimizin nadir incisi hərtərəfli diqqət mərkəzindədir. Dövlət başçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqəti nəticəsində bu gün İçəri Şəhər özünün intibah dövrünü yaşayır. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin yaradılması ilə bu gün Bakının ürəyi olan İçəri Şəhərdə abadlaşdırma, təmir-bərpa işləri bu köhnə şəhərin ab-havasına uyğun şəkildə müvəffəqiyyətlə aparılır. Bu işlərin həyata keçirilməsində ictimaiyyətimizin görkəmli xadimləri və ilk növbədə ölkəmizin birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva yaxından iştirak edirlər.

## Nəticə.

Müstəmləkə, əsarət həyatı yaşamış hər bir xalqın mədəniyyətində, xüsusilə mənəvi dəyərlərində deformasiya halları olub. Ölkəmizin iki əsrə yaxın çar Rusiyasının və Sovet İttifaqının tərkibində olması bir çox milli və dini adət-ənənələrimizin təzyiqlər altında qalması ilə nəticələnib. Dini bayramlarımızın həyata keçirilməsinə qadağalar qoyulub və xalqımızın yaddaşında yaşayıb. Əvəzində sosialist həyat tərzini təbliğ edən, mahiyyət etibarı ilə siyasi, ideoloji xüsusiyyətə malik olan adət və ənənələr təbliğ edilib.

Müstəqilliyimizi əldə etdikdən sonra Qurban, Ramazan, Novruz kimi dini və milli bayramlarımız üçün münbit zəmin yaranıb. Dini və milli mütərəqqi ritualların icra edilməsi yolunda siyasi və ideoloji amillər aradan qaldırılıb. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, adət-ənənələrimizdəki bədii-emosional cəhətlərin araşdırılmasına, onlarla əlaqədar olan folklor nümunələrinin aşkar olunmasına böyük ehtiyac duyulur.

Xalq tərəfindən yaradılan hər bir adət və ənənə uzunömürlü olub. İnsanlar hər şeydən əvvəl xalq tərəfindən keçirilən mərasimlərin təbiiliyinə inanıb. Çünki milli adət və ənənələrdə simvolik elementlər geniş yer tutur. Insan mənəviyyatına çevrilən amillər isə tərbiyə sistemində xüsusi əhəmiyyət kəsb edir.

# ƏDƏBİYYAT SİYAHISI:


**Füyuzat jurnalı. –** 2012. - № 1 (63). – S. 57
Muğam **ensiklopediyası**.- Bakı. : Tutu Uşaq Mədəniyyət Mərkəzi, 2008. - 215 s.
**Muğam ensiklopediyası.**-Bakı. : Musiqi dünyası. - : TUTU Design, 2008.
**Qadın xanəndələr** . Bakı.- : Musiqi dünyası. - : TUTU Design, 2008.
**B. Vəli.** Gəmiqaya təsvirləri.- Bakı. : Elm, 2003. - 168 s.
**K. Aydın Ələsgər oğlu.** Azərbaycan kinematoqrafçıları. -Bakı : Mütərcim, 2002. - 224 s.
**K. İnqilab.** Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri .- Bakı : Maarif, 2002. - 576 s.
**H.Cəmilə.** İncəsənət. Bəşəriyyətin misilsiz sərvəti. - Bakı : Ayna Mətbu Evi, 1999. - 96 s.
**Azərbaycan xalq mahnıları**. – Bakı. : Gənclik, 1997. - 152 s.
**B.Kəngərli** . – Bakı. : Çaşıoğlu, 2005. - 80 s.
**Q. Ulduzə.** Azərbaycan filmlərinin yaranma tarixindən . - Bakı : E.L. Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2006. - 687 s.
**Ə. Əziz Yusif oğlu.** Qərbi Azərbaycan abidələri . - Bakı : Ağrıdağ, 2006. - 328 s.
**Azərbaycan musiqi dünyası** .- Bakı. : Nurlar, 2001. - 464 s.
**Bizim Bülbül-dünyanın Bülbülü** / red. N. Hacızadə. - Bakı : Nurlan, 2004. - 516 s.
**S.Zemfira.** Azərbaycanın musiqi elmi : XII-XX əsrlər - Bakı : Azərnəşr, 2006. - 544 s.
**Ü.Hacıbəyov Ensiklopediyası**. – Bakı. : Şərq-Qərb, 2007.
**Orta əsrlər**. - Bakı : Şərq-Qərb, 2008. - 632 s.
**Azərbaycan xalçaçılıq sənəti**. – Bakı. : Xəzər, 2010. - 128 s.
**X. İmran**.. - Bakı : Ayna Mətbu Evi, 2001. - 79 s**.**
**C. Qaryağdı (1914-2001)** .- Bakı. : Şərq-Qərb, 2013. - 104 s.
**Fuad Əbdürrəhmanov (1915-1971.**- Bakı : Şərq-Qərb, 2013. - 104 s.
**K.Əhməd (1940-1994)** .- Bakı : Şərq-Qərb, 2013. - 104 s.
**Tokay Məmmədov** . – Bakı. : Şərq-Qərb, 2013. - 104 s.
**Azərbaycan filmləri.** – Bakı. : 2014. - 2 el. opt. disk .
**Azərbaycan xalçaları. Qarabağ** inciləri. - Bakı : Elm, 2010. - 155 s.
**Ə. Tahir.** Novruz süfrəsi . – Bakı.: 2010. - 80 s.
**Ə.Tahir.** Mətbəx dastanı . – Bakı.: 2011. - 212 s.
**Şirniyyat məmulatları** . – Bakı. : 2007. - 208 s.
**Novruz bayramı ensiklopediyası**. – Bakı. : Şərq-Qərb, 2008. - 208 s.